## RƏSMİ SƏNƏDLƏR

**“Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli 432 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

1. “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 fevral 2025-ci il**

**Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 dekabr 2024-cü il**

**“Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

“Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına (bundan sonra – Sərəncam) uyğunlaşdırılması ilə bağlı təkliflərini beş ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Mərkəzi icra hakimiyyəti orqanları dörd aydan gec olmayaraq, Sərəncamın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Sərəncama uyğunlaşdırılmasını təmin edib, bu barədə altı ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncamın icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə həvalə edilsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov,**
**Azərbaycan Respublikasının Baş Naziri**

**Bakı şəhəri, 28 sentyabr 2024-cü il**

**Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq qərara alıram:

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 sentyabr 2024-cü il**

# MÜSTƏQİLLİK GÜNÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul olunmuşdur. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Beləliklə, “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktına əsasən Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmişdir.

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsi ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan olunduğunu, 1991-ci il oktyabrın 18-də isə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu nəzərə alaraq qərara alır:

Maddə 1. Mayın 28-i Müstəqillik Günü elan edilsin.

Maddə 2. Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin.

Maddə 3. Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram günləri kimi qeyd edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 oktyabr 2021-ci il**

**Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin II hissəsinin 1-ci bəndini və 109-cu maddəsinin 18-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ümumxalq səsverməsinə (referenduma) çıxarılsın və kütləvi informasiya vasitələrində dərc edilsin (layihə əlavə olunur).

2. Ümumxalq səsverməsi (referendum) 2016-cı il sentyabrın 26-na təyin edilsin.

3. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ümumxalq səsverməsinin (referendumun) bu Sərəncamın 2-ci hissəsində göstərilən tarixdə keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti ümumxalq səsverməsinin (referendumun) maliyyələşdirilməsi ilə əlaqədar zəruri tədbirləri həyata keçirsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 26 iyul 2016-cı il**

**"Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında"**
**(2009-cu il martın 18-də ümumxalq səsverməsində (referendumda) qəbul edilib)**

## AZƏRBAYCAN RESPUBLİKASININ REFERENDUM AKTI

1. 12-ci maddənin I hissəsinə «azadlıqlarının» sözündən sonra «, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin» sözləri əlavə edilsin.

2. 15-ci maddənin II hissəsinə «əsasında» sözündən sonra «sosial yönümlü» sözləri əlavə edilsin.

3. 17-ci maddə «Ailə, uşaqlar və dövlət» adlandırılsın, maddəyə aşağıdakı məzmunda III, IV, V və VI hissələr əlavə edilsin:

«III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.».

4. 18-ci maddənin II hissəsində «dinlərin» sözündən sonra «(dini cərəyanların)» sözləri əlavə edilsin.

5. 19-cu maddənin II hissəsində «Milli» sözü «Mərkəzi» sözü ilə əvəz edilsin.

6. 25-ci maddəyə aşağıdakı məzmunda IV və V hissələr əlavə edilsin:

«IV. Heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

V. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.».

7. 29-cu maddənin IV hissəsindən «və ya ictimai ehtiyaclar» sözləri çıxarılsın.

8. 32-ci maddədə:

II hissənin ikinci cümləsində «şəxsi həyata» sözləri «şəxsi və ailə həyatına» sözləri ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

«Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.»;

III hissəyə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

«Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.»;

aşağıdakı məzmunda V hissə əlavə edilsin:

«V. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.».

9. 39-cu maddəyə aşağıdakı məzmunda III və IV hissələr əlavə edilsin:

«III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

IV. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.».

10. 48-ci maddəyə aşağıdakı məzmunda V hissə əlavə edilsin:

«V. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.».

11. 50-ci maddəyə aşağıdakı məzmunda III hissə əlavə edilsin:

«III. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.».

12. 67-ci maddədə:

maddənin adında «ittiham edilənlərin» sözləri «təqsirləndirilən şəxslərin» sözləri ilə, maddənin mətnində «ittiham etdiyi» sözləri «təqsirləndirdiyi» sözü ilə əvəz edilsin;

maddənin mövcud mətni I hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda II hissə əlavə edilsin:

«II. Cinayət törədilməsində təqsirləndirilən hər bir şəxs məhkum edilməzdən əvvəl dinlənilməlidir.».

13. 71-ci maddədə:

II hissəyə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

«Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır.».

aşağıdakı məzmunda IX və X hissələr əlavə edilsin:

«IX. Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

X. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər.».

14. 72-ci maddənin I hissəsinə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

«Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya qanunla qoyula bilər.».

15. 75-ci maddənin mövcud mətni I hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda II hissə əlavə edilsin:

«II. Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.».

16. 84-cü maddənin I hissəsinə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

«Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə, Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir.».

17. 88-ci maddəyə aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

«IV. Azərbaycan Respublikası Milli Məclisinin sessiyalarının iclasları açıq keçirilir. Azərbaycan Respublikası Milli Məclisinin 83 deputatının tələbi ilə və ya Azərbaycan Respublikası Prezidentinin təklifi ilə Azərbaycan Respublikası Milli Məclisinin sessiyasının qapalı iclası keçirilə bilər.».

18. 92-ci maddədə «daimi və başqa» sözləri «komitələr və» sözləri ilə əvəz edilsin.

19. 95-ci maddədə:

I hissənin 4-cü bəndinə «dövlətlərarası» sözündən sonra «və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası» sözləri əlavə edilsin;

15-ci bənddə «Milli» sözü «Mərkəzi» sözü ilə əvəz edilsin;

aşağıdakı məzmunda 20-ci bənd əlavə edilsin:

«20) bələdiyyələrin hesabatlarının dinlənilməsi.».

20. 96-cı maddədə:

I hissəyə «Ali Məhkəməsinə» sözlərindən sonra «Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına,» sözləri, II və IV hissələrinə «Ali Məhkəməsinin» sözlərindən sonra «Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının,» sözləri əlavə edilsin;

III hissədə «orqanın» sözü «subyektin» sözü ilə əvəz edilsin;

aşağıdakı məzmunda VI və VII hissələr əlavə edilsin:

«VI. Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası qanunla müəyyən edilir.

VII. Qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir.».

21. 101-ci maddənin V hissəsi aşağıdakı redaksiyada verilsin:

«V. Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə, Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir.».

22. 108-ci maddənin mövcud mətni I hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda II hissə əlavə edilsin:

«II. Əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin təminatı qaydaları Konstitusiya qanunu ilə müəyyən edilir.».

23. 109-cu maddənin I hissəsində:

10-cu bənddə «Milli» sözü «Mərkəzi» sözü ilə əvəz edilsin, bəndə aşağıdakı sözlər əlavə edilsin:

«Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri sırasından Azərbaycan Respublikası Mərkəzi Bankının sədrini təyin edir;»;

13-cü bənddə «İcra Aparatını» sözləri «Administrasiyasını» sözü ilə əvəz edilsin;

17-ci bənddə «dövlətlərarası beynəlxalq» sözləri «dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası» sözləri ilə əvəz edilsin.

24. 125-ci maddəyə aşağıdakı məzmunda VII hissə əlavə edilsin:

«VII. Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir.».

25. 129-cu maddənin mövcud mətni I hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda II və III hissələr əlavə edilsin:

«II. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

III. Məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır.».

26. 130-cu maddənin IX hissəsinə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

«Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları dərc edilməlidir.».

27. 131-ci maddəyə aşağıdakı məzmunda III hissə əlavə edilsin:

«III. Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarları dərc edilməlidir.».

28. 146-cı maddənin mövcud mətni V hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda I, II, III və IV hissələr əlavə edilsin:

«I. Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir.

II. Bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz.

III. Dövlət bələdiyyələrin fəaliyyətinə nəzarət edir.

IV. Qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələr öz fəaliyyətləri barəsində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edirlər.».

29. 149-cu maddəyə aşağıdakı məzmunda VIII hissə əlavə edilsin:

«VIII. Normativ hüquqi aktlar dərc edilməlidir. Heç kəs dərc edilməmiş normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməz və belə aktın icra olunmamasına (ona riayət olunmamasına) görə məsuliyyətə cəlb edilə bilməz. Normativ hüquqi aktların dərc edilməsi qaydası Konstitusiya qanunu ilə müəyyən edilir.».

**Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsinə dair ümumxalq səsverməsinin (referendumun) keçirilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI**

Azərbaycan Respublikası Milli Məclisinin bir qrup deputatı və ölkə ictimaiyyətinin nümayəndələri Milli Məclisin rəhbərliyinə çoxsaylı müraciətlər edərək, Azərbaycan Respublikası Konstitusiyasının bəzi maddələrində dəyişikliklər edilməsi barədə təkliflər irəli sürmüşlər. Milli Məclis rəhbərliyinin tapşırığına əsasən, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri və İnsan hüquqları daimi komissiyaları bu təkliflərin hamısını öyrənmiş, ümumiləşdirmiş və Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında Referendum Aktının layihəsini hazırlayaraq Milli Məclisə təqdim etmişlər.

Milli Məclisin 2008-ci il dekabrın 19-da keçirilmiş iclasında Referendum Aktı layihəsinin Azərbaycan Respublikası Konstitusiyasının 153-cü maddəsinin tələbinə əsasən rəy alınması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərilməsi barədə qərar qəbul edilmişdir. 2008-ci il dekabrın 24-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu təklif olunmuş dəyişikliklərə mahiyyəti üzrə baxaraq həmin dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasının 155-ci maddəsinin tələblərinə uyğun olması haqqında rəy qəbul etmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha səmərəli qorunması, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi, demokratiyanın genişləndirilməsi, yerli özünüidarənin inkişafı ilə bağlı müddəaların Azərbaycan Respublikasının Konstitusiyasında əks etdirilməsi zərurətini əsas tutaraq, Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin II hissəsinin 1-ci bəndinə və 95-ci maddəsinin I hissəsinin 18-ci bəndinə uyğun olaraq qərara alır:

1. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ümumxalq səsverməsinə (referenduma) çıxarılsın (layihə əlavə olunur).
2. Ümumxalq səsverməsi (referendum) 2009-cu il martın 18-ə təyin edilsin.
3. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Referendum Aktının layihəsi "Azərbaycan" qəzetində dərc edilsin.
4. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ümumxalq səsverməsinin (referendumun) bu qərarın 2-ci bəndində göstərilən tarixdə keçirilməsini təmin etsin.
5. Ümumxalq səsverməsinin (referendumun) maliyyələşdirilməsi dövlət büdcəsi hesabına həyata keçirilsin.

**O.ƏSƏDOV,**
**Azərbaycan Respublikası Milli Məclisinin Sədri**

**Bakı şəhəri, 26 dekabr 2008-ci il**

**"Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı**

1. 12-ci maddənin I hissəsinə "azadlıqlarının" sözündən sonra ", Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin" sözləri əlavə edilsin.

2. 15-ci maddənin II hissəsinə "əsasında" sözündən sonra "sosial yönümlü" sözləri əlavə edilsin.

3. 17-ci maddə "Ailə, uşaqlar və dövlət" adlandırılsın, maddəyə aşağıdakı məzmunda III, IV, V və VI hissələr əlavə edilsin:

"III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsi altındadırlar.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir."

4. 18-ci maddənin II hissəsində "dinlərin" sözündən sonra "(dini cərəyanların)" sözləri əlavə edilsin.

5. 19-cu maddənin II hissəsində "Milli" sözü "Mərkəzi" sözü ilə əvəz edilsin.

6. 25-ci maddəyə aşağıdakı məzmunda IV və V hissələr əlavə edilsin:

"IV. Heç kəsə yuxarıda göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

V. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir."

7. 29-cu maddənin IV hissəsindən "və ya ictimai ehtiyaclar" sözləri çıxarılsın.

8. 32-ci maddədə:

II hissənin ikinci cümləsində "şəxsi həyata" sözləri "şəxsi və ailə həyatına" sözləri ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.";

III hissəyə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.";

aşağıdakı məzmunda V hissə əlavə edilsin:

"V. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, həmçinin qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır."

9. 39-cu maddəyə aşağıdakı məzmunda III və IV hissələr əlavə edilsin:

"III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

IV. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir."

10. 48-ci maddəyə aşağıdakı məzmunda V hissə əlavə edilsin:

"V. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz."

11. 50-ci maddəyə aşağıdakı məzmunda III hissə əlavə edilsin:

"III. Hər kəsin hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən, kütləvi informasiya vasitələrində dərc edilən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir."

12. 67-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 67. Tutulanların, həbsə alınanların və cinayət törədilməsində təqsirləndirilənlərin hüquqları

I. Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində təqsirləndirdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

II. Cinayət törədilməsində təqsirləndirilən hər kəs məhkum edilməzdən əvvəl dinlənilməlidir."

13. 71-ci maddədə:

II hissəyə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır.

aşağıdakı məzmunda IX və X hissələr əlavə edilsin:

"IX. Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.";

X. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər."

14. 72-ci maddənin I hissəsinə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya qanunla qoyula bilər".

15. 75-ci maddənin mövcud mətni I hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda II hissə əlavə edilsin:

"II. Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur".

16. 84-cü maddənin I hissəsinə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir."

17. 88-ci maddəyə aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

"IV. Azərbaycan Respublikası Milli Məclisinin sessiyalarının iclasları açıq keçirilir. Azərbaycan Respublikası Mili Məclisinin 83 deputatının tələbi ilə və ya Azərbaycan Respublikası Prezidentinin təklifi ilə Azərbaycan Respublikası Milli Məclisinin sessiyasının qapalı iclası keçirilə bilər."

18. 92-ci maddədə "daimi və başqa" sözləri "komitələr və" sözləri ilə əvəz edilsin.

19. 95-ci maddədə:

I hissənin 4-cü bəndinə "dövlətlərarası" sözündən sonra "və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası" sözləri əlavə edilsin;

aşağıdakı məzmunda 20-ci bənd əlavə edilsin:

"20) bələdiyyələrin hesabatlarının dinlənilməsi."

20. 96-cı maddədə:

I hissəyə "Ali Məhkəməsinə" sözlərindən sonra "Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına" sözləri, II və IV hissələrinə "Ali Məhkəməsinin" sözlərindən sonra "Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının" sözləri əlavə edilsin;

III hissədə "orqanın" sözü "subyektin" sözü ilə əvəz edilsin;

aşağıdakı məzmunda VI və VII hissələr əlavə edilsin:

"VI. Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası qanunla müəyyən edilir.

VII. Qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir."

21. 101-ci maddənin V hissəsi aşağıdakı redaksiyada ifadə edilsin:

"V. Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir."

22. 108-ci maddənin mövcud mətni I hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda II hissə əlavə edilsin:

"II. Əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin təminatı qaydaları Konstitusiya qanunu ilə müəyyən edilir."

23. 109-cu maddənin I hissəsində:

10-cu bənddə "Milli" sözü "Mərkəzi" sözü ilə əvəz edilsin, bəndə aşağıdakı sözlər əlavə edilsin:

", Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri sırasından Azərbaycan Respublikası Mərkəzi Bankının sədrini təyin edir;";

13-cü bənddə "İcra Aparatını" sözləri "Administrasiyasını" sözü ilə əvəz edilsin;

17-ci bənddə "dövlətlərarası beynəlxalq" sözləri "dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası" sözləri ilə əvəz edilsin.

24. 125-ci maddəyə aşağıdakı məzmunda VII hissə əlavə edilsin:

"VII. Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir."

25. 129-cu maddənin mövcud mətni I hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda II və III hissələr əlavə edilsin:

"II. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

III. Məhkəmə qərarı əsaslandırılmalı və sübuta yetirilmiş olmalıdır."

26. 130-cu maddənin IX hissəsinə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları dərc edilməlidir."

27. 131-ci maddəyə aşağıdakı məzmunda III hissə əlavə edilsin:

"III. Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarları dərc edilməlidir."

28. 146-cı maddənin mövcud mətni V hissə hesab edilsin, maddəyə aşağıdakı məzmunda I, II, III və IV hissələr əlavə edilsin:

"I. Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Bələdiyyə üzvlərinin

seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir.

II. Bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz.

III. Dövlət bələdiyyələrin fəaliyyətinə nəzarət edir.

IV. Qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələr öz fəaliyyətləri barəsində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edirlər."

29. 149-cu maddəyə aşağıdakı məzmunda VIII hissə əlavə edilsin:

"VIII. Normativ hüquqi aktlar dərc edilməlidir. Heç kəs dərc edilməyən normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməz və belə aktın icra olunmamasına (ona riayət olunmamasına) görə məsuliyyətə cəlb edilə bilməz. Normativ hüquqi aktların dərc edilməsi qaydası Konstitusiya qanunu ilə müəyyən edilir."

**Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ REFERENDUM AKTI**

I. 3-cü maddəyə aşağıdakı məzmunda III hissə əlavə edilsin:

"III. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:

1) vergilər və dövlət büdcəsi;

2) amnistiya və əfv etmə;

3) seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi."

II. 27-ci maddənin IV hissəsindən "fövqəladə və hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi," sözləri çıxarılsın.

III. 71-ci maddənin III hissəsindən "yalnız" sözü çıxarılsın.

IV. 76-cı maddənin II hissəsində "alternativ hərbi xidmətlə" sözləri "alternativ xidmətlə" sözləri ilə əvəz edilsin.

V. 83-cü maddədə "və proporsional seçki sistemləri" sözləri "seçki sistemi" sözləri ilə əvəz edilsin.

VI. 88-ci maddənin I hissəsinin birinci abzasında "iki növbəti sessiyaya" sözləri "iki növbəti yaz və payız sessiyalarına" sözləri ilə əvəz edilsin; ikinci, üçüncü və dördüncü abzaslar çıxarılsın; altıncı abzasında "fevralın 1-dək" sözləri "martın 10-dək" sözləri ilə əvəz edilsin.

VII. 89-cu maddənin I hissəsindən 6-cı bənd çıxarılsın.

VIII. 95-ci maddədə:

- I hissənin 6-cı və 19-cu bəndləri aşağıdakı redaksiyada verilsin:

"6) Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi;";

"19) amnistiya.".

- III hissə aşağıdakı redaksiyada verilsin:

"III. Bu Konstitusiyada Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aid edilən digər məsələlərə, Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili ilə əlaqədar

məsələlərə, Azərbaycan Respublikası Milli Məclisinin münasibətinin bildirilməsi zəruri olan məsələlərə dair də qərarlar qəbul edilir."

IX. 96-cı maddənin I hissəsində "Ali Məhkəməsinə" sözlərindən sonra ",Azərbaycan Respublikası Prokurorluğuna" sözləri, II və IV hissələrində isə "Ali Məhkəməsinin" sözlərindən sonra ",Azərbaycan Respublikası Prokurorluğunun" sözləri, V hissəsində isə "Ali Məhkəməsi" sözlərindən sonra" ,Azərbaycan Respublikasının Prokurorluğu sözləri əlavə edilsin;

- II hissədə "üçdə iki səs çoxluğu ilə" sözləri "yarısından çoxunun səs çoxluğu ilə" sözləri ilə əvəz edilsin;

- IV hissədən "sadə" sözü çıxarılsın.

XI. 102-ci maddədə "7" rəqəmi "14" rəqəmi ilə əvəz edilsin.

XII. 105-ci maddədə:

- I hissədə "Azərbaycan Respublikası Milli Məclisinin sədri" sözləri "Azərbaycan Respublikasının Baş naziri" sözləri ilə əvəz edilsin;

- II hissədə "Azərbaycan Respublikası Milli Məclisinin sədri istefa verdikdə" sözləri "Azərbaycan Respublikasının Baş naziri istefa verdikdə" sözləri ilə, "Azərbaycan Respublikasının Baş naziri icra edir" sözləri isə "Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir" sözləri ilə əvəz edilsin.

- III hissədə "Azərbaycan Respublikası Baş nazirinin" sözləri "Azərbaycan Respublikası Milli Məclisi sədrinin" sözləri ilə əvəz edilsin.

XIII. 109-cu maddənin 14-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"14) Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;".

XIV. 95-ci, 109-cu və 125-ci və 128-ci maddələrdə "İqtisad Məhkəməsi" sözləri "apellyasiya məhkəmələri" sözləri ilə əvəz edilsin.

XV. 125-ci maddənin IV hissəsində "Konstitusiya icraatı istisna olmaqla, ədalət mühakiməsinin həyata keçirilməsində" sözləri "Cinayət məhkəmə icraatında" sözləri ilə əvəz edilsin.

XVI. 130-cu maddədə:

- III hissənin 7-ci bəndi çıxarılsın, 8-ci və 9-cu bəndlər müvafiq olaraq 7-ci və 8-ci bəndlər hesab edilsin;

- V, VI və VII hissələr müvafiq olaraq VIII, IX və X hissələr hesab edilsin;

aşağıdakı redaksiyada V, VI və VII hissələr əlavə edilsin:

"V. Hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş

qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər.

VI. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada məhkəmələr insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edə bilərlər.

VII. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkil insan hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarına, bələdiyyə və məhkəmə aktlarına qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verə bilər."

XVII. 131-ci maddənin I hissəsində "o, qanunla müəyyən edilmiş prosessual qaydalarda ümumi və ixtisaslaşdırılmış məhkəmələrin işinə nəzarəti həyata keçirir" sözləri "o, kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir" sözləri ilə əvəz edilsin.

XVIII. 132-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 132. Azərbaycan Respublikasının apellyasiya məhkəmələri

I. Azərbaycan Respublikasının apellyasiya məhkəmələri qanunla onların səlahiyyətlərinə aid edilmiş işlər üzrə yuxarı instansiya məhkəmələridir.

II. Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir."

XIX. 133-cü maddənin I hissəsində "qaydada" sözündən sonra "və hallarda" sözləri əlavə edilsin; "eyni cür və dürüst" sözləri çıxarılsın.

XX. 134-cü maddəyə aşağıdakı məzmunda VI hissə əlavə edilsin:

"VI. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilir və Konstitusiya Qanunu ilə təsdiq edilir".

XXI. 142-ci maddənin III hissəsi aşağıdakı redaksiyada verilsin:

"III. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.".

XXII. 149-cu maddənin III hissəsində "icra hakimiyyəti" sözləri "qanunvericilik, icra" sözləri ilə əvəz edilsin.

XXIII. 155-ci maddədə "dəyişikliklər" sözündən sonra "və ya onların ləğv" sözləri əlavə edilsin; «müddəaların» sözü "insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə" sözləri ilə əvəz edilsin.

XXVI. 158-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 158. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması

Bu Konstitusiyanın birinci bölməsində əks etdirilmiş müddəalarla əlaqədar Azərbaycan Respublikası Konstitusiyasına əlavələr təklif edilə bilməz.".

**Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikasının İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmasından, ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsindən irəli gələn, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin və seçki sisteminin təkmilləşdirilməsi ilə əlaqədar yeni müddəaların Azərbaycan Respublikasının Konstitusiyasında əks etdirilməsi zərurətini əsas tutaraq, Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin II hissəsinin 1-ci bəndinə və 109-cu maddəsinin 18-ci bəndinə müvafiq olaraq qərara alıram:

1. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktının layihəsi ümumxalq səsverməsinə (referenduma) çıxarılsın (layihə əlavə olunur).

2. Ümumxalq səsverməsi (referendum) 2002-ci il avqustun 24-nə təyin edilsin.

3. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının referendum aktının layihəsi bu Fərman imzalandığı gündən başlayaraq 48 saat müddətində kütləvi informasiya vasitələrində dərc edilsin.

4. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ümumxalq səsverməsinin (referendumun) bu Fərmanın 2-ci bəndində göstərilən tarixdə keçirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, ümumxalq səsverməsinin (referendumun) maliyyələşdirilməsi ilə əlaqədar zəruri tədbirləri həyata keçirsin.

6. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 iyun 2002-ci il**

**Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi haqqında ümumxalq səsverməsinin (referendumunun) keçirilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI**

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının müstəsna əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 may tarixli qərarına əsasən Azərbaycan Respublikası Prezidenti H. Əliyevin sədrliyi ilə Konstitusiya komissiyası yaradılmışdır.

Konstitusiya komissiyasının 1995-ci il oktyabrın 3-də keçirilmiş iclasında Azərbaycan Respublikası Prezidenti H. Əliyevin çıxışını nəzərə alaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 15-ci maddəsinin üçüncü hissəsini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi haqqında ümumxalq səsverməsi (referendum) keçirilsin.

2. Müəyyən edilsin ki, 1995-ci il noyabrın 12-də keçiriləcək Azərbaycan Respublikası referendumunun Mərkəzi komissiyasının və respublika (Naxçıvan Muxtar Respublikası) komissiyasının səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə Mərkəzi Seçki Komissiyasına həvalə edilir.

**R. Quliyev,**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**

**Bakı şəhəri, 3 oktyabr 1995-ci il.**

**Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın aşağıdakı tərkibi təsdiq edilsin:
Komissiyanın sədri:

Əliyev Heydər Əlirza oğlu—Azərbaycan Respublikasının Prezidenti

Komissiyanın sədr müavini:

Quliyev Rəsul Bayram oğlu—Azərbaycan Respublikası Ali Sovetinin sədri

Komissiyanın üzvləri:
Quliyev Fuad Xəlil oğlu—Azərbaycan Respublikasının Baş naziri

Mehdiyev Ramiz Ənvər oğlu—Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

Rəhimzadə Arif Qafar oğlu—Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini

Əliyev Yaşar Tofiqi—Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini

Həsənov Namiq Həsən oğlu—Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri

Xanbabayev Şəmsəddin Hüseynqulu oğlu—Naxçıvan Muxtar Respublikasının Baş naziri

Rüstəmov İzzət Əşrəf oğlu—Azərbaycan Respublikası Baş nazirinin müavini

Əfəndiyev Elçin İlyas oğlu—Azərbaycan Respublikası Baş nazirinin müavini

Abbasov Aslan Məmməd oğlu—Azərbaycan Respublikası Milli Məclisinin hüquq siyasəti daimi komissiyasının sədri

Vəkilov Yusif Səməd, oğlu—Azərbaycan Respublikası Milli Məclisinin Xarici işlər daimi komissiyasının sədri

Hacıkərimov Şirin Qasım oğlu—Azərbaycan Respublikası Milli Məclisinin Dövlət quruculuğu və müdafiə məsələləri daimi komissiyasının sədri

Hacıyev Xanlar İrşad-Faiq oğlu—Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri

Həsənov Eldar Hümbət oğlu—Azərbaycan Respublikasının Baş prokuroru

Həsənov Həsən Əziz oğlu—Azərbaycan Respublikasının xarici işlər naziri

Allahverdiyev Rəfael Xanəli oğlu—Bakı şəhər İcra hakimiyyətinin başçısı

Həsənova Südabə Cəmşid qızı—Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini

Salayev Eldar Yunis oğlu—Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti

Rzayev Anar Rəsul oğlu—Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədri

Ələsgərov Murtuz Nəcəf oğlu—M. Rəsulzadə adına BDU-nun rektoru, professor, hüquq elmləri doktoru

Bünyadov Ziya Musa oğlu—Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü

Maqsudov Fərəməz Qəzənfər oğlu—Azərbaycan Respublikası Elmlər Akademiyasının akademik-katibi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü

Axundov Ağamusa Ağası oğlu—Azərbaycan Respublikası Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru

Məlikova Məsumə Fazil qızı—Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

Musayev Səfiyar Bəylər oğlu—M. Rəsulzadə adına BDU-nun professoru, tarix elmləri doktoru

Qasımzadə Fuad Feyzulla oğlu—M. Rəsulzadə adına BDU-nun professoru, fəlsəfə elmləri doktoru

Mirzəyev Səfa Abbas oğlu—Azərbaycan Respublikası Ali Soveti Katibliyinin Baş katibi

Əliyev Şahin Məhərrəm oğlu—Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

Məmmədov Etibar Səlidar oğlu—Azərbaycan Respublikası Milli Məclisinin üzvü

Manafova Asya Sərdar qızı—Azərbaycan Respublikası Milli Məclisinin üzvü

Zabelin Mixail Yuryeviç—Azərbaycan Respublikası Milli Məclisinin üzvü

Qəniyev Hüseynağa Ərəb oğlu—Azərbaycan Respublikası Milli Məclisinin üzvü

Ömərov Əli Ömər oğlu—Azərbaycan Respublikası Milli Məclisinin üzvü

Əzimova Rəfiqə Cəlil qızı—Azərbaycan Respublikası Elmlər Akademiyasının Fəlsəfə və hüquq İnstitutunun aparıcı mütəxəssisi, fəlsəfə elmləri doktoru

2. Azərbaycan Respublikasının ilk milli konstitusiyası layihəsinin hazırlanması haqqında Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 6 dekabr tarixli qərarına əlavə olunan Azərbaycan Respublikasının ilk milli konstitusiyası layihəsini hazırlayan komissiyanın tərkibi qüvvədən düşmüş hesab edilsin.

**R. Quliyev,**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**

**Bakı şəhəri, 2 may 1995-ci il.**

**Azərbaycan Respublikasının dövlət suverenliyini və ərazi bütövlüyünü pozan hərəkətlərin yolverilməzliyi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ MİLLİ ŞURASININ QƏRARI**

1992-ci il yanvarın 6-da Xankəndi şəhərində üzdəniraq Dağlıq Qarabağ respublikasının Soveti deyilən Konstitusiyaya zidd təşkilatın nümayişkaranə surətdə yeni yığnağı keçirilmişdir.

Ermənistan rəhbərliyinin və erməni diasporunun beynəlxalq ekstremist təşkilatlarının törətdikləri növbəti siyasi fitnəkarlıqla bir vaxtda erməni quldur birləşmələrinin azərbaycanlı əhaliyə qarşı terror və zorakılığı son dərəcə güclənir, onların evləri və əmlakı məhv edilir. Dağlıq Qarabağda yerləşən azərbaycanlı kəndləri dağıdılır.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün pozulmasına beynəlxalq birlik üzvü olan dövlətlərin tam etinasız qaldıqlarını narahatlıqla qeyd edir.

Rusiyanın kütləvi informasiya vasitələri bir çox hallarda qərəzkar mövqe tutaraq Dağlıq Qarabağ respublikası deyilən respublika barəsində məlumatlar verir, bu respublikanın mövcudluğunun hüquqiliyi barədə ictimaiyyətdə rəy yaradırlar.

Bu cinayətkarlıq tədbirinin təşkilatçıları xarici ölkələrdən bir sıra jurnalistlərin və İngiltərə parlamentinin üzvü xanım Koksun xəlvətcə Azərbaycan Respublikası ərazisinə kəlməsindən tədbirə geniş təbliğatçılıq donu geyindirmək və Dağlıq Qarabağın azərbaycanlı əhalisinə qarşı erməni quldur birləşmələrinin terrorunun və zorakılığının güclənməsinə haqq qazandırmaq üçün istifadə etməyə çalışmışlar.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası Azərbaycan xalqının suveren iradəsini ifadə edərək və Azərbaycan Respublikası Konstitusiyasının 70-ci maddəsini əsas tutaraq qərara alır:

1. Mövcud olmayan Dağlıq Qarabağ respublikası Sovetinin sessiyası deyilən sessiya və onun qərarları Azərbaycan Respublikasının suverenliyinə, müstəqilliyinə meydan oxumaq kimi, respublikanın ərazi bütövlüyünə qəsd, Azərbaycan xalqının həyatına, şərəfinə və ləyaqətinə qarşı yönəldilmiş hərəkət kimi qiymətləndirilsin. Bu sessiyanın və onun qərarlarının heç bir hüquqi əsasa malik olmadığı qeyd edilsin.

2. Azərbaycan Respublikasının müvafiq nazirlikləri Dağlıq Qarabağ ərazisində Azərbaycan Respublikasının suverenliyin bərpa edilməsi, bu ərazidə yaşayan vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasını və qanunlarını qəbul edib, onlara hörmət bəsləməsi üçün bütün qanuni vasitələrdən istifadə etsinlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının dövlət suverenliyinə və ərazi bütövlüyünə zidd fəaliyyətə, dövlət sərhədlərimizin xarici vətəndaşlar tərəfindən pozulmasına qarşı notalar və başqa formada etiraz sənədləri göndərmək sahəsində işi gücləndirsin.

4. Beynəlxalq nüfuza malik dövlətlərin parlamentlərinə təklif edilsin ki, müstəqil Azərbaycan Respublikası ərazisinin bir hissəsini qoparmaq üçün Dağlıq Qarabağda erməni millətçi ekstremistlərinin qanunsuz cinayətkarlıq əməlinə və Azərbaycan Respublikasına qarşı Ermənistanın silahlı təcavüzünə öz münasibətlərini bildirsinlər.

5. BMT-nin Təhlükəsizlik Şurasından xahiş edilsin ki, bu məsələləri nəzərdən keçirsin:

Azərbaycan Respublikası ərazisinin bir hissəsini qoparmaq məqsədilə Ermənistan Respublikasının ona qarşı təcavüzü, Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə üçün silahlı birləşmələrdən istifadə etməsi haqqında;

BMT-nin insan hüquqlarına dair Bəyannaməsinin Ermənistan tərəfindən pozularaq, Ermənistan ərazisindən 200 min azərbaycanlının zorla çıxarılması haqqında.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası reallıq hissini itirmiş erməni millətçi ekstremistlərinə xəbərdarlıq etməyi özünə borc bilir ki, Azərbaycan xalqı öz dövlətinin suverenliyini və ərazi bütövlüyünü qorumaq əzmindədir və bunun üçün bütün lazımi vasitələrə malikdir.

**E. QAFAROVA,**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**

**Bakı şəhəri, 13 yanvar 1992-ci il.**

**Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında**

**KONSTİTUSİYA AKTI**

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi.

Azərbaycan Respublikası öz ərazisində tam dövlət hakimiyyətinə malik olub müstəqil xarici və daxili siyasət yeridirdi. Azərbaycan Respublikasının müstəqil dövlətə xas olan təsisatları - parlamenti, hökuməti, ordusu, maliyyə sistemi yaradılmışdı və fəaliyyət göstərirdi. Azərbaycan Respublikası bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Lakin 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu.

Bunun ardınca Azərbaycan 1806-1828-ci illərdə olduğu kimi, yenidən Rusiya tərəfindən ilhaq edildi.

SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilə bu ilhaqı təsbit etməli idi. Sonralar, 70 il ərzində Azərbaycan Respublikasına qarşı əslində müstəmləkəçilik siyasəti yeridilir, Azərbaycanın təbii ehtiyatları amansızcasına istismar olunur, milli sərvətləri çapılıb talanır, Azərbaycan xalqı təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalırdı, onun milli ləyaqəti tapdalanırdı. Bütün bunlara baxmayaraq Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirirdi.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə də bu mübarizənin yekunu olmuşdur.

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir.

I. ÜMUMİ MÜDDƏALAR

Maddə 1. 1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Demokratik Respublikasını devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin.

Maddə 2. Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir.

Maddə 3. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsızdır.

Keçmiş SSR İttifaqının tərkibinə daxil olmuş suveren dövlətlər ilə qarşılıqlı münasibətlərin ortaya çıxan bütün məsələləri müqavilələr və sazişlər əsasında nizama salınmalıdır.

Maddə 4. Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası bu Konstitusiya Aktının müddəalarına zidd gəlməyən yerlərində qüvvədə qalır.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası elan edilənə qədər qüvvədə olmuş, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə zidd olmayan, milli dövlət quruluşunun dəyişdirilməsinə yönəldilməmiş aktların hamısı Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır.

Azərbaycan Respublikasının müvafiq qanunları qəbul edilənədək SSRİ qanunları Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini saxlayır; həmin qanunların siyahısını Azərbaycan Respublikasının parlamenti müəyyən edir.

Maddə 5. Azərbaycan Respublikasının müstəqilliyinə qarşı yönəldilən hər hansı hərəkət suveren dövlətin daxili işlərinə qarışmaqdır və beynəlxalq hüquq normalarına uyğun olaraq bu hərəkətlərə cavab verilir.

Maddə 6. SSRİ-nin dövlət borcunun yalnız o hissəsi Azərbaycan Respublikasına keçə bilər ki, respublikanın ərazisində təsərrüfat fəaliyyəti nəticəsində və Azərbaycan Respublikasının ixtiyarına keçən SSRİ əmlakı ilə əlaqədar yaranmış olsun.

Maddə 7. SSRİ-nin Azərbaycan Respublikası ərazisindəki bütün daşınar və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının dövlət mülkiyyətidir. SSRİ-nin daşınar mülkiyyətinin beynəlxalq hüquqa uyğun olaraq müqavilə üzrə başqa dövlətlərə - SSRİ-nin keçmiş subyektlərinə verilə biləcək hissəsi istisna təşkil edir.

SSRİ-in Azərbaycan Respublikasının hüdudlarından kənarda olan, lakin Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrdə Azərbaycanın milli gəliri, təbii və başqa ehtiyatları hesabına yaranmış əmlakı bu əmlakın yaranmasında Azərbaycanın töhfəsinə müvafiq həcmdə, müqavilə üzrə Azərbaycan Respublikasına keçir.

II. AZƏRBAYCAN XALQI

Maddə 8. Azərbaycan xalqı Azərbaycan Respublikasının ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir.

Maddə 9. Öz idarəetmə formasını seçmək, başqa xalqlarla öz münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz hüququdur.

Maddə 10. Azərbaycan Respublikasında suveren hakimiyyət Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqının hər hansı bir hissəsi, hər hansı bir şəxs suveren hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

Azərbaycan xalqı suveren hakimiyyəti bilavasitə referendum vasitəsilə və Azərbaycan Respublikasının parlamentinə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Maddə 11. Azərbaycan xalqı öz iradəsinin ifadəsi kimi Azərbaycan Respublikasının demokratik quruluşuna və qanunun aliliyinə təminat verir.

III. AZƏRBAYCAN DÖVLƏTİ

Maddə 12. Azərbaycan xalqı müstəqil, dünyəvi, demokratik, unitar dövlət yaradır, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır.

Azərbaycan Respublikasının suverenliyi şəriksizdir və onun bütün ərazisinə şamildir.

Azərbaycan Respublikası öz ərazisində həyata keçirdiyi suveren hüquqları heç bir formada başqa dövlətlərə və ya dövlət ittifaqlarına vermir.

Maddə 13. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipinə əsaslanır.

Qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının parlamenti tərəfindən həyata keçirilir.

Ali icra hakimiyyəti Azərbaycan dövlətinin başçısı olan Azərbaycan Respublikası Prezidentinə məxsusdur.

Məhkəmə hakimiyyəti müstəqil məhkəmələr tərəfindən və ali instansiyada – hər birinin öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının Ali Arbitraj Məhkəməsi tərəfindən həyata keçirilir.

Maddə 14. Azərbaycan Respublikasının ərazisi vahiddir, bölünə və özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin hər hansı bir hissəsini, hər hansı bir formada kimsəyə vermir; yalnız Azərbaycan Respublikası parlamentinin qərarı ilə respublikanın bütün əhalisi arasında xalq səsverməsi (referendum) keçirmək yolu ilə Azərbaycan xalqının razılığı əsasında sərhədlərdə dəqiqləşdirmə aparıla bilər.

Azərbaycan Respublikası ərazisinin heç bir hissəsi başqa dövlətə və ya başqa dövlətin hüquqi şəxsinə satıla və verilə bilməz.

Maddə 15. Azərbaycan Respublikasının ərazisində yalnız Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının qanunları qüvvədədir.

Qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının Konstitusiyası ilə, icra və məhkəmə hakimiyyəti Azərbaycan Respublikasının Konstitusiyası, qanun və hüquq ilə məhdudlaşdırılır.

Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikası parlamentinin qərarı ilə respublikanın bütün əhalisi arasında xalq səsverməsi (referendum) keçirmək yolu ilə qəbul edilir.

Maddə 16. hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini aşağıdakı prinsiplər əsasında qurur: dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, insanın hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, xalqların bərabərliyi və onların öz müqəddəratını təyin etmək hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək.

Maddə 17. Azərbaycan Respublikası:

1. Azərbaycan xalqının birliyini qorumalı, ayrıca şəxsin, ailənin, ictimai birliklərin və digər kollektivlərin mənafeyinə uyğun surətdə qanundan irəli kələn hüquqları və azadlıqları müəyyən edərək və bunlara hörmət göstərilməsini təmin edərək hüquq qaydası yaratmalıdır.

2. Sosial fəallığın bütün növlərinə rəvac verməli və onları əlaqələndirməli, bütün vətəndaşların mənafelərinin qanuna əsasən uzlaşmasını təmin etməli, hər bir şəxsin azad inkişafı üçün bərabər şərait yaratmalıdır.

3. Dövlət və ya ictimai mənzil fondunun evlərində abad yaşayış sahəsi almaqda və ondan daimi istifadə etməkdə, fərdi mənzil tikintisində Azərbaycan Respublikası vətəndaşlarına kömək göstərməlidir.

4. Güzəranı daha ağır olan əhali qruplarının vəziyyətinin yaxşılaşdırılması və sosial müdafiəsi qayğısına qalmalı, onların insana layiq həyat səviyyəsini, binəsiblərin sosial müdafiəsini təmin etməyə çalışmalıdır.

5. Azərbaycan Respublikası vətəndaşlarının həyatına, sağlamlığına, şəxsi azadlığına və təhlükəsizliyinə edilən qəsdlərdən onların müdafiəsini təmin etməlidir.

6. Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığını qorumalı, sağlam ekoloji mühitin mühafizəsinə kömək göstərməli, dövlətin əzəli və təbii özəyi olan ailəni, habelə anaları və uşaqları himayə etməlidir.

Maddə 18. Azərbaycan Respublikasında Azərbaycan Respublikasının vahid vətəndaşlığı müəyyən edilir.

Azərbaycan Respublikası öz vətəndaşlarının qarşısında qanunla müəyyən edilmiş vəzifələr daşıyır, Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasının qarşısında qanunla müəyyən edilmiş vəzifələr daşıyırlar.

heç kəs vətəndaşlıqdan və ya vətəndaşlığını dəyişdirmək hüququndan məhrum edilə bilməz. Azərbaycan Respublikasının hüdudlarından kənarda olan hər bir Azərbaycan Respublikası vətəndaşının hüquqi müdafiəsinə təminat verilir.

Maddə 19. Azərbaycan Respublikasının bütün vətəndaşları qanun qarşısında bərabərdirlər. Azərbaycan Respublikası insan hüquqlarının Ümumi Bəyannaməsinə, Helsinki müşavirəsinin Yekun aktına və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşularaq, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsini təmin edir.

Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqları qanunda nəzərdə tutulmuş xüsusi hallardan başqa, hər hansı formada məhdudlaşdırıla bilməz.

IV. İQTİSADİ MÜNASİBƏTLƏR

Maddə 20. Bütün təbii ehtiyatlar hər hansı şəxslərin və ya təşkilatların mülkiyyət hüquqlarına və mənafeyinə xələl gətirilmədən Azərbaycan Respublikasına məxsusdur.

Maddə 21. Hansı mənbədən gəlirsə gəlsin, Azərbaycan Respublikasının bütün mədaxili vahid ehtiyatlar əmələ gətirir və bu ehtiyatlar qanundan irəli gələn tələblərə və öhdəliklərə əməl olunmaqla, qanunun müəyyən etdiyi məqsədlər üçün və qanunun müəyyən etdiyi qaydada işlədilir.

Maddə 22. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və kollektiv mülkiyyət şəklində ola bilər.

Xüsusi və kollektiv mülkiyyətə qanunla icazə və təminat verilir: qanun onların alınması və onlardan istifadə olunması üsullarını, onun fəaliyyət hüdudlarını müəyyən edir.

Xüsusi və kollektiv mülkiyyət məcburi şəkildə özgəninkiləşdirilə bilməz. Qanunda nəzərdə tutulmuş hallarda xüsusi və kollektiv mülkiyyət zərərin ödənilməsi şərtilə Azərbayçan Respublikasının xeyrinə özgəninkiləşdirilə bilər.

Daşınar və daşınmaz əmlakın tam müsadirəsinə yol verilmir.

Maddə 23. Azərbaycan Respublikasında hər cür iqtisadi fəaliyyət bazar münasibətlərinə və sahibkarlıq azadlığına əsaslanır.

Maddə 24. Azərbaycan Respublikası kooperasiyaya rəvac verir və müxtəlif kooperativ təşkilatlarının və başqa birliklərin qanuna müvafiq surətdə inkişafı üçün. lazımi şərait yaradır.

Maddə 25. Azərbaycan Respublikası bütün formalarda əməyi mühafizə edir. Öz əməyinin kəmiyyət və keyfiyyətinə uyğun olaraq zəhmətkeşin azad və ləyaqətli yaşayış üçün kifayət edən haqq almaq hüququ vardır.

Qanunla müəyyən edilmiş hallardan başqa, məcburi əmək qadağan edilir.

Əmək qabiliyyəti olmayan və lazımi dolanışıq imkanlarından məhrum olan hər bir vətəndaşın dövlətdən kömək və yardım almaq hüququ vardır.

Zəhmətkeşlər həmkarlar ittifaqları təsis etməkdə azaddırlar.

Tətil hüququnu zəhmətkeşlər bu hüququ tənzimləyən qanunlar çərçivəsində həyata keçirirlər.

V. SİYASİ MÜNASİBƏTLƏR

Maddə 26, Azərbaycan Respublikasının yetkinlik yaşına çatmış vətəndaşlarının seçki hüququ vardır.

Səsvermə şəxsi, bərabər, azad və gizlidir.

Səsvermə hüququ yalnız vətəndaşın hüquq qabiliyyətsizliyi nəticəsində və ya qüvvəyə minmiş məhkəmə hökmü əsasında məhdudlaşdırıla bilər.

Maddə 27. Azərbaycan Respublikasının siyasətinin müəyyənləşdirilməsinə demokratik yolla kömək etmək üçün Azərbaycan Respublikasının bütün vətəndaşlarının azad surətdə siyasi partiyalar və digər ictimai birliklər yaratmaq hüququ vardır.

Maddə 28. Siyasi plüralizm prinsiplərinə uyğun olaraq siyasi partiyalar ictimai rəyin formalaşdırılmasında və ifadəsində iştirak edirlər və siyasi fəaliyyətin əsas ünsürləridir. Onların yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası və qanunları çərçivəsində azaddır.

Maddə 29. Azərbaycan Respublikasını müdafiə etmək Azərbaycan Respublikası vətəndaşının müqəddəs borcudur.

Qanunla müəyyən edilmiş hüdudlarda və növlərdə hərbi xidmət məcburidir.

Maddə 30. Azərbaycan Respublikasının bütün vətəndaşları öz gəlirlərinə uyğun olaraq dövlət xərclərində iştirak etməlidirlər.

Vergi sistemi mütərəqqilik prinsipinə əsaslanır.

Maddə 31. Bütün vətəndaşlar Azərbaycan Respublikasına sadiq olmalı, onun Konstitusiyasına və qanunlarına riayət etməlidirlər.

VI. YEKUN MÜDDƏALARI

Maddə 32. Bu Konstitusiya Aktı Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üçün əsasdır.

**A. MÜTƏLLİBOV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 oktyabr 1991-ci il**